# AVROPANIN UŞAQ HÜQUQLARI OMBUDSMANLARI ŞƏBƏKƏSİ (ENOC)

ENOC müstəqil uşaq hüquqları təsisatlarının üzv olduğu və fəaliyyətində gəlir əldə etmək məqsədi olmayan təşkilatdır. ENOC Avropa Şurasına üzv ölkələrin uşaq hüquqlarının müdafiəsi sahəsində fəaliyyət göstərən müstəqil təsisatlarını əlaqələndirir.

Təşkilatın mandatı BMT-nin Uşaq hüquqları haqqında Konvensiyasında təsbit olunmuş uşaq hüquqlarının müdafiəsi və təşviqinə dəstək göstərməkdir.

ENOC 1997-ci ildə Norveçin Trondheim şəhərində UNİCEF ilə birlikdə 10 təsisatdan ibarət ilkin qrupun bir araya gəldiyi toplantıda yaradılmışdır.

ENOC-a üzvlüyün iki forması var: tam və assosiativ üzvlük. ENOC-a üzvlük Avropa Şurasına üzv ölkələrlə məhdudlaşır. Hazırda 34 ölkədən 44 təsisat ENOC-un üzvüdür, onlardan 22-si Avropa Birliyinə üzv ölkələrdir.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) təsisatı 2008-ci ildən Avropa Uşaq Hüquqları Ombudsmanları Şəbəkəsinin üzvüdür. Müvəkkil və əməkdaşları ENOC-un müxtəlif ölkələrdə keçirilən İllik konfranslarında və Baş Assambleyalarında iştirak edərək fikir və təcrübə mübadiləsi ilə bölüşürlər.

Ombudsman Aparatı müxtəlif illərdə ENOC tərəfindən həyata keçirilən Avropa Gənc Məsləhətçilər Şəbəkəsi (ENYA – European Network of Young Advisors) layihəsində iştirak etmişdir. Həmin layihə çərçivəsində Azərbaycandan olan uşaqların bir sıra Avropa ölkələrində (Fransa, Şimali İrlandiya, Yunanıstan, Fransa, İspaniya və s.) keçirilən tədbirlərdə, onlayn müzakirələrdə iştirakı təmin olunmuşdur.

Qeyd olunmalıdır ki, 2025-ci il 19 sentyabr tarixində Rumıniyanın Buxarest şəhərində keçirilən ENOC-un 29-cu Baş Assambleyasında Azərbaycan Ombudsman təsisatı assosiativ üzvlükdən tam üzvlüyə qəbul edilmişdir. Belə ki, Ombudsmanın təşəbbüsü ilə uşaq hüquqları sahəsində normativ hüquqi aktlara edilən dəyişikliklər, Ombudsmana verilən səlahiyyətlər və aparılan institusional islahatlar nəzərə alınaraq, Azərbaycan Ombudsman təsisatının ENOC-un Nizamnaməsində əks olunmuş meyarlara uyğunluğu təsdiq edilmişdir.